1-1.qxd 22.02.2018 11:24 Page 1

# Prezident seçkilərinə start verildi



"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev


Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 05 (1021) 21 Fevral 2018-ci il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı


## Yeni Azərbaycan Partiyasının Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezidentliyə namizədliyi irəli sürüldü

## Prezident İlham Əliyev İranın müdafiə və silahlı qüvvələrə dəstək nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Dövlət başçısı Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi. Yüksək səviyyədə qarşılıqlı səfərlərin müntəzəm olaraq həyata keçirildiyini vurğulayan Prezident İlham Əliyev son illər ərzində İran İslam Respublikası Prezidenti ilə 10-a yaxın görüşün keçirilməsinin əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı İran İslam Respublikasına son səfərini məmnunluqla xatırlayaraq, həm Ali rəhbərlə, həm də Prezidentlə məhsuldar müzakirələrin aparıldığını qeyd etdi. Dövlətimizin başçısı İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəminin Azərbaycana bu səfərinin ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əlaqələrin hazırkı vəziyyəti və gələcək birgə əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.

## İlham Əliyev Gürcüstanın Baş nazirinin birinci müavini ilə görüşüb

***Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan ilə Gürcüstanın uzun illər fəal əməkdaşlıq etdiklərini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu əməkdaşlıq təkcə Azərbaycan və Gürcüstan üçün deyil, ümumilikdə bir çox ölkələr üçün geniş imkanlar açır. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla həyata keçirilir və bu, ölkələrimizin imkanlarının və tərəfdaşlığının göstəricisidir.***

Dövlət başçısı vurğuladı ki, Azərbaycan və Gürcüstan nəqliyyat sahəsində də qlobal layihələr həyata keçirirlər. Neft-qaz sahəsindəki əməkdaşlıq ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və dayanıqlı inkişaf üçün əsas yaradır.

"Cənub Qaz Dəhlizi" layihəsinin artıq yeddi ölkəni əhatə etdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, istehsalçı və tranzit ölkələr arasında maraqların uzlaşdırılması çox vacibdir. Biz buna nail olmuşuq və bu, gələcək uğurlarımızın zəmanətidir. Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili Baş nazir Giorgi Kvirikaşvilinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.



## Rayon İcra hakimiyyəti başçısı yanında növbəti Şura iclası keçirildi



***Bu günlər Rayon İcra hakimiyyəti başçısı yanında növbəti Şura iclası keçirildi. Şuranın müzakirəsinə çıxarılan məsələlər barəsində ətraflı məlumat verən cənab Məhərrəm Quliyev ilk öncə son dövrdə ölkəmizdə baş verən mühüm hadisələr və həyata keçirilən iqtisadi islahatlar kursu barədə ətraflı məlumat verdi. Şurada rayon İcra hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırma şöbəsinin müdiri A.Hacıyev " Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanından irəli gələn vəzifələrin icrası barədə məruzə etdi.***

Rayon İcra hakimiyyəti başçısının şəhər, qəsəbə, kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərində 01.01.2018-ci il tarixinə təsərrüfat başına kitablarda aparılmış dürüstləşmələr və kargüzarıq sahəsində aparılan işlər barədə Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Şaiq Qurbanovun, "Əhalinin sağlamlığının qorunmasına dair dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi, gənc ana və körpələrin sağlamlığının qorunması istiqamətində tədbirlərin aparılmasının təmin olunması" haqqında Rayon İcra hakimiyyəti



başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lalə Eyyubovanın, "Azərbaycan Respublikası Qanunlarının, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarının, Nazirlər Kabinetinin qərarlarının icrası və həmin qanunvericilik aktlarının həyata keçirilməsi sahəsində görülən işlər" barədə Hüquq şöbəsinin müdiri Müşfiq Hüseynovun məruzəsi dinlənildi.Məsələlər ətrafında geniş müzakirələr aparıldı və aidiyyəti təşkilat rəhbərlərinin arayışları

1-1.qxd 22.02.2018 11:24 Page 2



# “Ağstafa rayonunun 2017-ci ildə sosial-iqtisadi inkişafının yekunları və 2018-ci ildə qarşıda duran vəzifələr haqqında” rayon İcra hakimiyyəti başçısının hesabat yığıncağının QƏRARI

1. “Ağstafa rayonunun 2017-ci ildə sosial-iqtisadi inkişafının yekunları və 2018-ci ildə qarşıda duran vəzifələr barədə” rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyevin məruzəsi nəzərə alınsın.

2. Hesabat ilində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı” Dövlət Proqramının icrası ilə əlaqədar olaraq rayonda yeni sosial obyektlərin tikintisi, infrastrukturun yenilənməsi, abadlıq-quruculuq və tikinti işlərinin aparılması, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun artırılması və yeni iş yerlərinin yaradılması, rayon əhalisinin sosial müdafiəsi və yaşayış səviyyəsinin yüksəldilməsi sahəsində əməli işlərin görülməsi qeyd edilsin.

3. Hesabat ilində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı” Dövlət Proqramına uyğun olaraq rayonda təhsilin infrastrukturunun yenilənməsi, səhiyyə və mədəniyyət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və həmin sahələrin inkişafı istiqamətində zəruri işlərin görüldüyü qeyd olunsun.

4. Rayonun sosial infrastrukturunun xüsusilə, elektrik enerjisi və təbii qaz yanacağı ilə təchizatın yaxşılaşdırılması, içməli su və kanalizasiya sisteminin, kənd və kəndarası yolların tikintisi və inkişafı istiqamətində əməli tədbirlərin görüldüyü qeyd edilsin və həyata keçirilən tədbirlərin davam etdirilməsi zəruri hesab edilsin. Ağstafa rayonunun kəndlərinin qazlaşdırılması istiqamətində əldə olunan nəticələr qeyd edilməklə bu sahədə işlərin daha da sürətləndirilməsi təmin edilsin. Rayonun Kür çayının sol sahilində yerləşən Böyük Kəsik kəndinin ilin birinci rübü ərzində qazlaşmasının başa çatdırılması təmin edilsin.

5. Hesabat ilində Ağstafa şəhərinin abadlaşdırılması, tikinti-quruculuq və yenidənqurma işlərinin aparılması sahəsində görülən işlər qeyd edilməklə, cari ildə şəhərdə abadlıq, təmir-tikinti işlərinin aparılmasının tikinti norma və qaydalarına əməl olunmaqla, memarlıq üslubuna uyğun təşkilinə və qanunsuz tikintilərin qarşısının alınmasına diqqət artırılsın və rayonda tikinti-quruculuq və abadlıq sahəsində işlərin davam etdirilməsi təmin edilsin.

6. Rayonda əhalinin məşğulluğunun artırılması, sahibkarlığın inkişafı, yeni istehsal, emal və xidmət sahələrinin təşkili, yeni iş yerlərinin yaradılması sahəsində hesabat ilində əməli işlərin görüldüyü qeyd edilsin və bu istiqamətdə tədbirlərin sürətləndirilməsi zəruri hesab olunsun. Yerli istehsalat, emal və xidmət sahələrinin bərpası istiqamətində təşkilati işlərin görülməsi sürətləndirilsin, yerli və xarici iş adamlarının cəlb edilməsi yolu ilə ənənəvi istehsalat sahələrinin müasir texnologiyaların tətbiq edilməsi ilə bərpası və təbii ehtiyatlardan səmərəli istifadə olunması təmin edilsin.

7. Sahibkarlığın və aqrar bölmədə özəl qurumların inkişafına kömək göstərilməsi sahəsində işlərin artırılması təmin edilsin, Sahibkarlığa Kömək Milli Fondunun imkanlarından daha səmərəli istifadə olunması üçün maarifləndirmə işlərinin aparılması təmin edilsin.

8. Aztəminatlı ailələrin sosial müdafiəsinin təşkili, əmək pensiyalarının, sosial müavinətlərin təyini və ödənilməsi sahəsində şəffaflığı təmin edən tədbirlərin davam etdirilməsi zəruri sayılsın.

9. Rayonda kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən dövlət dəstəyi proqramının uğurla həyata keçirilməsi, torpaq mülkiyyətçilərinin hüquqlarının təmin olunması istiqamətində əməli işlərin aparıldığı qeyd olunsun. Aqrar bölmənin inkişafına təsir edən tədarük və emal sahələrinin bərpası və yenilərinin yaradılması, eləcə də məhsulun saxlanması üçün soyuducu anbar komplekslərinin təşkili istiqamətində tədbir görülməsinə, baytarlıq, bitki mühafizəsi və aqroservis xidmətinin, torpaqlardan istifadə və suvarmanın təşkilinin yaxşılaşdırılmasına diqqət artırılsın.

10. Son illər ərzində rayonda müasir yeni məktəb binalarının tikilməsi, rayon məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi sahəsində əməli işlərin görüldüyü qeyd edilsin. Orta məktəblərdə, məktəbdənkənar müəssisələrdə təlim tərbiyə və tədris prosesinin səviyyəsinin artırılması, əmək intizamı, dərsə davamiyyət məsələlərinə ciddi yanaşma təmin edilsin, pedaqoji kadrların yerləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və istilik təchizatı işinə nəzarət olunması təhsil şöbəsinin rəhbərliyindən tələb edilsin.

11. Səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibbi avadanlıq və texnika ilə təmin olunması sahəsində yeniliklərin olması qeyd edilsin. Fizioterapiya və bərpa mərkəzinin istifadəyə verilməsi, doğum şöbəsinin əsaslı təmir işlərinin aparılması kimi rayon əhalisinə göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi tədbirlərinin davam etdirilməsi Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Fatma Vəliyevadan tələb olunsun.

12. Rayonda mədəni-kütləvi tədbirlərin təşkili qeyd olunsun, kənd və qəsəbələrdə klub, mədəniyyət evi və kitabxana müəssisələrinin bina şəraitinin yaxşılaşdırılması və turizmin inkişafı sahəsində rayonda əlavə tədbirlərin davam etdirilməsi zəruri hesab edilsin. Rayonunda mədəniyyət və turizm sahəsində, eləcə də kənd və qəsəbələrdə mədəniyyət müəssisələrinin işinin gücləndirməsi istiqamətində tədbirlər görülsün.

13. Yeniyetmə və gənclər arasında olimpiya-idman hərəkatının, idmanın kütləviliyinin artmasının təmin olunması, fiziki bədən tərbiyəsi və idmana meylliliyin artırılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili, idmanın müxtəlif növlərini əhatə edən klubların və əyləncə mərkəzlərinin yaradılması, mədəni irsə, milli mənəvi dəyərlərə hörmət və vətənpərvərlik tərbiyəsi sahəsində işlərin daha da gücləndirilməsi rayon Gənclər və İdman idarəsinin rəisi Feyruz Həsənovdan tələb olunsun.

14. Rayon İcra Hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd ərazi nümayəndəliklərinin və bələdiyyələrin fəaliyyətinin yaxşılaşdırılması, onların güclərinin yerlərdə sosial-iqtisadi problemlərin həllinə yönəldilməsi üçün tədbirlər görülsün. Aztəminatlı və yoxsul ailələrin sosial müdafiəsi, yerlərdə sosial inkişaf proqramlarının icrası istiqamətində bələdiyyələrlə əlaqəli işin gücləndirilməsi zəruri hesab edilsin.

15. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, tövsiyə və təkliflərinin, mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarının vaxtında və tam icrasının təmin olunması, icra intizamının möhkəmləndirilməsinin və icraya nəzarətin təşkili, dövlət idarəçilik prinsiplərinin tətbiq olunmasının təmin olunması rayon icra hakimiyyəti başçısı aparatının şöbə müdirlərindən, idarə, müəssisə və təşkilat rəhbərlərindən tələb olunsun.

16. Qərarın icrasına nəzarət rayon icra hakimiyyəti başçısının üzərində saxlanılsın.

17. Qərar “Ağstafa” qəzetində dərc olunsun.

## 26 Fevral-Xocalı soyqırımı günü

# Tarixin qan yaddaşı

***1990-cı ilin qanlı 20 Yanvar faciəsindən az sonra 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində qəsbkar rus ordusunun köməyi ilə ermənisolahlı birləşmələri bəşəriyyət tarixində misli görünməmiş ikinci bir qanlı faciə törətdilər. Həmin gecə 366-cı motoatıcı alayın çoxsaylı ağır texnikası qəfildən şəhərə yeridilmiş, dişləri qana batmış cinayətkarlar şəhərdən qaçmaq istəyən dinc azərbaycanlıları amansızlıqla qətlə yetirmiş, yaşayış evləri, ictimai binalar tamamilə dağıdılıb yandırılmışdır.***

Beynəlxalq hüquq baxımından soyqırımı kimi qiymətləndirilən Xocalı faciəsindən artıq 26 il keçir. Tarixin qan yaddaşı kimi xalqımızın hafizəsinə həkk olunmuş qanlı faciə zamanı 600-dən çox soydaşımızın, o cümlədən 106 qadın, 63 uşaq və 70 qocanın həyatına son qoyulub. 1300 nəfərə qədər girov götürülmüş, yüzlərlə dinc sakin ağır yaralanmışdır. O gecə kütləvi qırğın həyata keçirilərkən 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

Bu faciə erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı uzun müddət məqsədyönlü şəkildə davam etdirilən etnik təmizləmə və soyqırımı siyasəti olduğunu bir daha təsdiq edir. Bu dəhşətli hadisələr sırasında bu il 100 illiyini qeyd edəcəyimiz 31 mart 1918-ci ildə azərbaycanlılara qarşı törədilən, dünya tarixində özünün ağır nəticələri ilə seçilən soyqırımı da xüsusi yer tutur.

Ağır Xocalı sıyqırımını törətməklə hərbi təcavüzünün miqyasını daha da genişləndirən , ölkəmizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı və ətraf rayonları işğal edən Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində əzəli torpaqlarımızın 20 faizindən çoxu işğala məruz qalıb, bir milyondan artıq soydaşımız doğma dədə-baba torpaqlarından zorla qovulub və ya öz torpağına məcburi köçkünə çevrilibdirş

Ümumxalq liderimiz mərhum Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə Xocalı faciəsi ilə bağlı Milli Məclisdə xüsusi məsələ müzakirə olunmuş, Xocalı soyqırımına xüsusi hüquqi-siyasi qiymət verilmişdir. Həmin vaxtdan xalqımız Xocalı faciəsini bir xalqa qarşı yönəldilmiş soyqırımı kimi qeyd edir, namərd qonşularımızın Azərbaycan xalqının başına gətirdikləri müsibətlərə aid həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdırmaya çalışırlar.

Hər il olduğu kimi, bu il də Xocalı soyqırımının dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə müvafiq sərəncamla “Xocalı soyqırımın iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı” təsdiq edilmişdir. Həmin plana əsasən rayonumuzda da idarə və müəssisələrdə, ümumtəhsil ocaqlarında və səhiyyə müəssisələrində Xocalı faciəsi haqqında söhbətlər aparılır, faciənin mahiyyəti, soyqırımının məqsəd və vəzifələri dinləyicilərə izah olunur. Soyqırımına həsr olunmuş bütün tədbirlərdə birmənalı şəkildə vurğulanır ki, uzun müddət özümüzə yaxın bilib dost saydığımız erməni daşnaklarının bu cinayətləri heç zaman unudulmayacaq, xalqın qan yaddaşı kimi hafizələrdən silinməyəcəkdir.

Xocalı soyqırımına həsr olunmuş tədbirlərdə gənclərin xüsusilə fəal iştirakı onu göstərir ki, gənc nəsil xalqımıza qarşı törədilən vəhşilikləri, qanlı cinayətləri heç zaman unutmayacaqdır.

***Sona Abdullayeva,***
***BDU-nin Jurnalistika fakültəsinin məzunu***



# Müəllim əməyi qiymətləndirildi

***Hər səhər işə gələndə onunla yol kənarında qabaqlaşır, salamlaşır və özümdən asılı olmayaraq, bir anlığa orta məktəb illərində mənə dərs deyən, şərəfli ad daşıyan müəllimləmirimi xatırlayıram. Özü ilə yaxından tanış olmasam da, həyat yoldaşı Vaqif Bayramovla səmimi münasibətim var. Oğlanları İsmayılı, Məmmədi də yaxşı tanıyıram. Onlar da Ağstafanın seçilib-sayılan, öz həmyaşıdları arasında böyük hörmət qazanan gənclərdir.***

Haqqında söhbət açacağım ziyalı Ağstafa şəhər 2 saylı tam orta məktəbin müəllimi Fərqanə Bayramovadır. O, hamı kimi Bakı şəhərində Xarici Dillər institutunda təhsil almış, Qazax rayonunun Musaköy kəndində ixtisası üzrə ingilis dili müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. Sonralar ailə vəziyyəti ilə əlaqədar Ağstafa şəhər 2 saylı tam orta məktəbində əmək fəaliyyətini davam etdirmiş və 30 ilə yaxındır ki, bu məktəbdə işləyir.

F. Bayramovanın qabaqcıl, təcrübəli müəllim kimi kollektivdə və eləcə də ictimaiyyət arasında böyük hörməti vardır. Rayon təhsil şöbəsində ən yaxşı ingilis dili müəllimlərindən söz düşəndə Fərqanə müəllimənin adı birincilər sırasında çəkilir.

F. Bayramova təkcə müəllim kimi deyil, həm də qabaqcıl ictimaiyyətçi kimi böyük nüfuza malikdir. O, məktəbdə ingilis dili üzrə metodbirləşmənin sədri, məktəb pedaqoji şurasının katibidir.

2018-ci il Fərqanə müəllimin həyatında ən əlamətdaər illərdən biri kimi yadda qalacaqdır. Bu il onun 60 yaşı tamam olur. Bu günlər Rayon icra hakimiyyəti başçısı yanında keçirilən şura iclasında qabaqcıl müəllimənin əməyinə yüksək qiymət verilmiş və ona Rayon icra hakimiyyətinin Fəxri fərmanı təqdim olunmuşdur. Bu münasibətlə F. Bayramovanı təbrik edir, ona daha böyük uğurlar arzulayırıq.

***İ.Əliyev***

1-1.qxd 22.02.2018 11:24 Page 3



*Mövcud cəmiyyətdə hüquq normalarının düzgün və səmərəli tətbiqinin təmin edilməsi hüququn prinsiplərinə riayət etmək başlanğıc şərt kimi qoyulmuşdur. Hər bir cəmiyyətdə mövcud olan normalar həmin cəmiyyətin adət-ənənələri, ümumiləşmiş davranış qaydalarını, əxlaq və sosial qaydaların məcmusunu özündə əks etdirir və sosial sivilizasiyanın inkişafı ilə həmin qaydaların zamanla dəyişərək daha təkmil forma alması zərurəti meydana çıxır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin humanist dəyərlərindən irəli gələn tapşırıqlarından biri də cinayət qanunvericiliyinin yenidən nəzərdən keçirilməklə cəza siyasətinin humanistləşdirilməsi məqsədilə yeni qanun layihələrinin hazırlanması olmuşdur.*

# Qanunlarda edilən hər bir dəyişiklik vətəndaşların hüquqlarının qorunmasına xidmət edir

Belə qanun layihələrindən ən önəmlisi "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Cinayət Məcəlləsinə edilən dəyişikliklər olmuşdur.

Əvvəlcə onu qeyd edək ki, yuxarıda göstərdiyimiz 10 fevral 2017-ci il tarixli Sərəncam hüquq sistemində mütərəqqi islahatların daha intensiv davamına rəvac verməklə, bu sahədə sürətli təkamülün əsasını qoymuşdur. Sərəncamın əsas məqsədlərindən biri məhz cəza siyasətinin humanistləşdirilməsi, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının etibarlı təminatıdır. Bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş humanizm siyasətinə sadiqlik dövlət idarəçiliyinin əsas prinsiplərindən birinə çevrilmişdir. Təkcə onu demək kifayətdir ki, möhtərəm Prezidentimizin ötən dövrdə imzaladığı qərarları ilə 3.400-ə yaxın məhkum əfv edilmişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tərəfindən də hər zaman mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış edilərək onun təşəbbüsü ilə qəbul edilmiş 4 amnistiya aktının 40 minə yaxın insana şamil olunması cinayət törətmiş şəxslərin islah olunması və cəmiyyətə yenidən inteqrasiyasına xidmət etmişdir.

“Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanunu geniş miqyası ilə fərqlənməklə, cinayət-hüquq siyasətinin liberallaşdırılması istiqamətində aparılan hüquq islahatlarının yeni mərhələsinin başlanğıcı sayıla bilər. Həmin Qanunla qüvvədə olan Cinayət Məcəlləsinin 300-dən çox maddəsinə əlavə və dəyişikliklər edilmişdir. Azərbaycan Respublikası Prezidentinin qeyd edilən Sərəncamı və onun icrası ilə bağlı cinayət təqibi və cəza siyasətinin liberllaşdırılmasına yönələn Qanunun qəbulu ölkəmizdə hökm sürən real ictimai-siyasi sabitlikdən, iqtisadi inkişaf sahəsində əldə etdiyimiz nailiyyətlərdən, bir sözlə, günün tələblərindən irəli gəlir.

Yuxarıda göstərildiyi kimi, 20 oktyabr 2017-ci il tarixli Qanunla Cinayət Məcəlləsinin «Həyat və sağlamlıq əleyhinə olan cinayətlər», «Məlkiyyət əleyhinə olan cinayətlər», «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər», «Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər» və digər fəsillərində yerləşən 300-ə qədər maddədə mühüm dəyişikliklər və əlavələr edilərək, 18 cinayət əməli dekriminallaşdırılmış, 24 cinayət əməlinə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azad etmə, 1 cinayətə görə narkomanlıq xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi müəyyən olunmuş, 152 normanın sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə edilməsi və 36 cinayət görə azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsində bir sıra əməllərin dekriminallaşdırlması istiqamətində diqqət çəkən mühüm dəyişikliklərdən biri də «Mülkiyyət əleyhinə olan cinayətlər» və «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər»lə bağlı cinayət məsuliyyətinin yaranmasına səbəb olan ziyanın məbləğinin əhəmiyyətli dərəcədə artırılmasıdır. Belə ki, yeni Qanunda ölkədə gedən iqtisadi-sosial proseslər və iqtisadi inkişaf sahəsində əldə edilmiş uğurlar nəzərə alınaraq Azərbaycan Respublikası CM-nin «Mülkiyyət əleyhinə olan cinayətlər» fəslinin 177.1, 178.1 və 179.1-ci maddələri ilə nəzərdə tutulan cinayətlərin törədilməsinə görə məsuliyyətin yaranması üçün zəruri olan məbləğ beş dəfə, yəni 100 manatdan 500 manatadək artırılaraq, həmin əməllərlə əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulmasının cinayət məsuliyyətinə səbəb olması təsbit edilmiş (əvvəllər bu maddələrlə məsuliyyətin yaranması üçün yüz manatdan yuxarı, lakin üç min manatdan artıq olmayan məbləğ nəzərdə tutulurdu), habelə, 177-182-ci, 185-187-ci və 189-1-ci maddələrdə «xeyli miqdar» ziyanın beş min manatdan yuxarı, lakin əlli min manatdan yuxarı olmayan məbləği (əvvəllər 177-187, 189 və 189-1-ci maddələrdə «xeyli miqdar» dedikdə, üç min mantadan yuxarı, lakin on min manatdan yuxarı olmayan məbləğ başa düşülürdü), «külli miqdar» ziyanın əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləği (əvvəllər «külli miqdar» dedikdə on min manatdan artıq olan məbləğ başa düşülürdü), «xüsusilə külli miqdar» ziyanın beş yüz min manatdan yuxarı olan məbləği ehtiva etməsi müəyyən olunmuşdur. Bunlardan başqa əhəmiyyətli məqamlardan biri kimi qeyd olunmalıdır ki, edilmiş dəyişikliklərə əsasən Cinayət Məcəlləsinin 177.2.1-177.2.3-2, 177.2.5 və 177.3.1-ci maddələrində nəzərdə tutulmuş əməllərə görə cinayət məsuliyyətinin yaranması üçün əmlakın mülkiyyətçisinə və ya digər sahibinə yüz manatdan yuxarı məbləğdə ziyanın vurulması kifayət edir.



**Aslan Surxayev,**
**Ağstafa rayon prokuroru,**
**baş ədliyyə müşaviri**

Bunlarla yanaşı, edilmiş dəyişikliklərə əsasən «xüsusilə ağır cinayət» kimi Cinayət Məcəlləsinə əlavə olunmuş 6 maddənin (177.4, 178.4, 179.4, 180.4, 181.4 və 182.4-cü maddələr), «ağır» cinayət kimi əlavə edilmiş 2 maddənin (185.4 və 186.3-cü maddələr), «az ağır» cinayət kimi əlavə olunmuş 8 maddənin (187.4, 189-1.2-1, 192.3.1, 192.3.2, 193.3.1, 193.3.2, 209.3 və 213.3-cü maddələr) dispozisiyalarında nəzərdə tutulmuş «xüsusilə külli miqdar» anlayışı həmin əməllərin törədilməsi nəticəsində beş yüz min manatdan yuxarı ziyan vurulmasını ehtiva edir. Göstərilən dəyişikliklər nəticəsində ayrı-ayrı kateqoriyaya aid cinayət tərkiblərinin yaranması üçün tələb olunan məbləğlər əhəmiyyətli dərəcədə artırıldığına görə cinayət qanunu ilə cəzalandırılmalı olan xeyli əməllər inzibati xəta kimi tövsif ediləcəkdir.

Cinayət Məcəlləsinə edilmiş kompleks dəyişikliklərin və əlavələrin məzmunundan da göründüyü kimi, ən mütərəqqi yeniliklərdən biri də cinayət məsuliyyətindən azad olma institutunun daha da təkmilləşdirilməsi və onun tətbiq dairəsinin genişləndirilməsi hesab olunur. Cinayətlərin dekriminallaşdırılmasına yönəlmiş mühüm əhəmiyyətli yenilik kimi, Cinayət Məcəlləsinin ayrı-ayrı fəsillərində nəzərdə tutulmuş bir sıra cinayət əməllərinin törədilməsi nəticəsində vurulmuş ziyanın ödənilməsi və zərərçəkmiş şəxslə barışmaq ilə əlaqədar cinayət məsuliyyətindən azad etməyə dair müddəa təsbit olunmuşdur. Belə ki, yeni Qanunla Cinayət Məcəlləsinin 73.1-ci maddəsində müvafiq dəyişiklik edilərək «İlk dəfə böyük» sözləri «Böyük» sözü ilə əvəz olunmuş və bununla da, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad olunma institutunun tətbiqi imkanları genişləndirilmişdir.

Eyni zamanda, Cinayət Məcəlləsinin 74.1-ci maddəsindən «ilk dəfə» sözləri çıxarılmaqla, şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edildikdə, böyük ictimai təhlükəli olmayan və ya az ağır cinayət törətmiş şəxsin cinayət məsuliyyətindən azad olunmasının əsasları və imkanı daha da artırılmışdır.

Yeni Qanunla narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət törətmiş şəxslərin cinayət məsuliyyəti ilə bağlı humanistləşdirmə istiqamətində bir sıra yeniliklər müəyyən olunmuşdur. İlk növbədə Cinayət Məcəlləsinin 234.1-ci maddəsinin sanksiyasına bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması cəzası əlavə edilmişdir. Habelə, Cinayət Məcəlləsinə əlavə edilmiş 74-1.1-ci maddəyə əsasən, bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən bu xəstəliklə əlaqədar staisonar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Həmin şəxsin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edildikdə, məhkəmə şəxsi cinayət məsuliyyətindən azad edir. Qanunvericilikdə təsbit olunmuş həmin müddəalar narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət törətmiş şəxslərin şəxsiyyəti və işin digər halları nəzərə alınmaqla onların barəsində azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzanın tətbiqinə, bu şəxslərin yenidən təbiyə və islah olunması, müalicə edilməklə sağlam həyata qaytarılması və cəmiyyətə inteqrasiyası üçün geniş imkanlar yaradır.

Cinayət qanunvericiliyinə edilmiş dəyişikliklər cinayətin zərərli nəticələrinin aradan qaldırılması, zərərçəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsinin təmin olunması, cinayət törətmiş şəxslərin islah olunması və gələcəkdə yeni cinayətlər törətmələrinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir.

“Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanunu ilə Cinayət Məcəlləsində nəzərdə tutulmuş cəzaların siyahısına azadlığın məhdudlaşdırılması cəza növünün əlavə edilməsi və çoxsaylı cinayətlərə görə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların təcrübədə geniş tətbiqi, xeyli cinayətlərə görə əvvəllər təyin olunmuş cəzadan məhkumların azad edilməsi və azadlıqdan məhrum etmə cəzasının müddətinin azaldılması, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması, cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması, törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulan ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi, habelə zərərçəkmiş şəxslə barışmağa və vurulmuş ziyanın ödənilməsinə görə cinayət məsuliyyətindən azad etmə institutunun daha da geniş tətbiq olunması azadlıqdan məhrum etmə cəzasının tətbiqinin və onun hədlərinin əhəmiyyətli dərəcədə azaldılmasına, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsini təmin edərək qeyd edilən hər bir istiqamətdə növbəti islahatlar dalğasının həyata keçirilməsinə təkan verəcək və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərilən Sərəncamı ilə qarşıya qoyulmuş vəzifələrin səmərəli yerinə yetirilməsinə əlverişli şərait yaradacaqdır.

# Onuncu Respublika olimpiadası keçirilmişdir




***Fevralın 15-də Ağstafa şəhər 3 nömrəli tam orta məktəbdə Azərbaycanda tədrisin rus və Azərbaycan dillərində olduğu orta ümumtəhsil məktəblərinin şagirdləri arasında rus dili və ədəbiyyatı fənni üzrə 10-cu Respublika olimpiadası keçirilmişdir. Olimpiada Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi, "Rossotrudniçestvo" agentliyinin ölkəmizdəki nümayəndəliyi və Ağstafa rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə reallaşmışdır.***



Olimpiadanın keçirilməsində əsas məqsəd rus dilini və rus mədəniyyətini şagirdlərə mənimsətməkdən ibarət olmuşdur.

Açılış mərasimi Azərbaycanın və Rusiyanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlanmışdır.

Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin rəhbəri, Rusiya səfirliyinin müşaviri Valentin Denisov, xanım Alesya Aleynikova çıxış edərək Azərbaycanda rus dilinə böyük marağın olduğunu qeyd etmişlər.



Olimpiadada Ağstafa rayon məktəblərindən 170 nəfər, Qazax rayon məktəblərindən 35 nəfər olmaqla, ümumilikdə 205 nəfər şagird iştirak etmişdir.

Final mərhələsi test tapşırığı və mətn üzrə şifahi danışıq olmaqla 2 hissədən ibarət olmuşdur.

Olimpiadanın yekununda şagirdlərə Rusiya səfirliyi tərəfindən sertifikatlar təqdim edilmişdir.

# Mədinənin Avropa Çempionatında yeni qələbəsi

***Aşağı Kəsəmən kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Mədinə Sadıqova Avropa Çempionatında yeni qələbə qazanmışdır. Gənc idmançı Rusiyanın Soçi şəhərində keçirilən yeniyetmə karateçilərin 45-ci Avropa çempionatında Azərbaycanın milli yığma komandasının tərkibində respublikamızı təmsil etmiş və həmin yarışda öz rəqiblərinin hamısına qalib gələrək final mərhələsinə vəsiqə almışdır.***

Final yarışında rusiyalı idmançı ilə döyüşən Mədinə son dəqiqələrə qədər öz rəqibindən üstün olsa da, ən yüksək pilləyə çata bilməmiş, son saniyələrin nəticələrinə görə hakimlərin qərarı ilə ikinci yerlə kifayətlənmişdir. Bütün bunlara baxmayaraq, Mədinə Sadıqova gələn il yeniyetmələr arasında keçiriləcək olimpiya yarışına vəsiqə almışdır. Bir çox beynəlxalq yarışların qalibi ilə Mədinənin bu böyük qələbəsi onun təhsil aldığı məktəbin müəllimlərini, şagirdlərini və eləcə də bütün ağstafalıları ürəkdən sevindirir. Gənc idmançının qazandığı bu böyük qələbəyə görə rayon rəhbərliyi adından, bütün ağstafalılar adından onu ürəkdən təbrik edir, gələcək yarışlarında ona böyük qələbələr arzulayırıq.




# Etibarsız sayılır

Həsənsu kənd sakini Xudaverdiyeva Fəridə Allahverdi qızının adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair 151 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Həsənsu kənd sakini Abdullayev Mürsəl Zaman oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Poylu kənd sakini Bayramov Ziyəddin Alı oğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN 69-A nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Ağtafa şəhər sakini Tağıyev Rizvan Rəhim oğlunun adına olan 50201100001301101-093015 reyestr nömrəli, 2612001432 qeydiyyat nömrəli Texniki pasport və Reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Vurğun qəsəbə sakini Zeynalov İzzət Hüseyn oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-553 (kod 50202018) nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Ağstafa şəhər sakini Məmmədov Tacəddin Hidayət oğlunun adına olan 640646 nömrəli Yeni Azərbaycan Partiyasının üzvülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Qırılı kənd sakini Qurbanova Səmayə Kərim qızının adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-0008 nömrəli (kod 50200068) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Poylu qəsəbə sakini Əliyeva Zeynab Sadıq qızının adına olan 576 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

"N" saylı hərbi hissənin giziri Xəlilov Fərmayıl Qədim oğlunun adına olan SQ 0019282 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

"N" saylı hərbi hissənin müddətdən artıq qadın hərbi qulluqçusu Abdullayeva Afət İzariyyə qızının adına olan ADN- na olan SQ 0019240 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Həsənsu kənd sakini Qulyanov Danel Muşel oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-236 A nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Yuxarı Göycəli kənd sakini Hacıyeva Fatma İsrayıl qızının adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN-451 F nömrəli Şəhadənamə itdiyi üçün etibarsı sayılır.

# Allah rəhmət eləsin!

Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayon prokuroru Aslan Surxayev, rayon Məhkəməsinin sədri İlqar Əliyev Rayon polis şöbəsinin rəisi Elsevər Aslanova, bacısı oğlu

**Anar Mirzəyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, aparatın məsul işçiləri Suvarma Sistemləri İdarəsinin rəisi Tofiq Bayramova, atası

**Marks Bayramovun**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Rayon polis şöbəsinin şəxsi heyəti şöbənin rəisi Elsevər Aslanova, bacısı oğlu

**Anar Mirzəyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Aydın Tağızadə Ağstafa rayon Polis şöbəsinin rəisi Elsevər Aslanova, bacısı oğlu

**Anar Mirzəyevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir, ailəsinin adından dərin hüznlə başsağlığı verir.

***

Rayon Ağsaqqallar şurasının sədri Firdovsi Heydərli ailəsi ilə birlikdə yaxın qohumu Elçin Hüseynova, əziz qohumu

**Elxan Hüseynovun**

qəflətən vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***

Ağstafa Suvarma Sistemləri İdarəsinin kollektivi idarənin rəhbəri Tofiq Bayramova, atası

**Marks Bayramovun**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Ağstafaçay Hidroqovşaq İstismar İdarəsinin kollektivi Suvarma Sistemləri İdarəsinin rəisi Tofiq Bayramova, atası

**Marks Bayramovun**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Kamran Abbasov, İbrahim Əliyev, Gülgün Kərimov, Kənan İbrahimov, Vaqif Əkbərov, Sahib Salıfov, Oqtay Məsmaliyev, Mirəsgər Mahmudov yaxın dostları Tofiq Bayramova, atası

**Marks Bayramovun**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR:**

**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

*__Redaksiya heyəti__*

*L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan:*
*Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*